# İçərişəhərdə Əliağa Vahidin yaradıcılıq gecəsi keçirilib



**Avqustun 29-da "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin təşkilatçılığı ilə dahi şair Əliağa Vahidin yaradıcılıq gecəsi keçirilib. Proqram İçərişəhərdə, Vahidin abidəsi önündə təqdim olunub.**

Azərbaycanın Əməkdar artisti Loğman Kərimov şairin yaradıcılığının milli poeziyamız üçün əhəmiyyətindən danışaraq, onun əsərlərinin bu gün də aktual olduğunu vurğulayıb.

Aktyor, dramaturq və teleaparıcı Kamran Ağabalayev və aktyor Sənan Əlləz Vahidin qəzəllərindən nümunələr səsləndiriblər.

Azərbaycan ədəbiyyatında dahi şairin xidmətlərindən söz açan Hacı Aqil Məlikov, şairin ənənələrinin bu gün də davam etdirildiyini diqqətə çatdırıb.

Xanəndə Nisbət Sədrayeva, kamança ifaçısı Toğrul Əsədullayev və tar ifaçısı Səxavət Məmmədov şairin yaradıcılığından nümunələr ifa ediblər.

Gecəyə xüsusi məna qatan məqamlardan biri isə rejissor Şahmar Ələkbərovun çəkdiyi "Qəzəlxan" (1991) tammetrajlı filmindən seçilmiş kadrlar nümayiş olunub.

Qeyd edək ki, Əliağa Vahidin heyrətamiz istedadı meyxanadan qəzələ qədər bir çox janr və istiqamətləri əhatə edən Azərbaycan poeziyasının obrazlı dilini həmişəlik dəyişib. Onun şeirləri bu gün də aktuallığını itirmədən səhnədən səslənir. Şekspirin sonetləri kimi onlar da zaman kontekstinin fövqündə yaşayırlar.

Azərbaycan. - 2025.- 31 avqust (№184).- S.7.